# MALİYYƏ SİYASƏTİ

**Elşən Bağırzadə**

*iqtisad üzrə fəlsəfə doktoru*

**Bakı - 2015**

# GİRİŞ əvəzi

**Nə vaxt, hansı səbəblə, hansı arqumentlə və hansı şəraitdə mümkün olarsa olsun, vergilərin azaldılmasının tərəfdarıyam.**

***Milton Friedman***

# MALİYYƏ SİYASƏTİ NƏDİR?

- Maliyyə vasitələrindən istifadə etmək yolu ilə əldə edilməsi nəzərdə tutulan iqtisadi hədəflərə nail olmağa istiqamətlənmiş tədbirlərin məcmusudur.

# MALİYYƏ SİYASƏTİNİN HƏDƏFLƏRİ

- Makroiqtisadi hədəflər:
  - 1. Ölkənin potensialına uyğun olan iqtisadi artımın təmin edilməsi;
  - 2. Büdcənin tarazlıqda saxlanması;
  - 3. Stabilliyin təmin edilməsi (inflyasiya və deflyasiyadan kənar tarazlığa nail olunması);
  - 4. Yüksək məşğulluq və ya ən aşağı işsizlik səviyyəsinə nail olunması;
  - 5. Cari əməliyyatlar hesabında davamlı tarazlığın təmin edilməsi;
  - 6. Valyuta kursunun tarazlıqda saxlanması, yüksək dalğalanmaların qarşısının alınması;
  - 7. Daxili və xarici maliyyələşmənin tarazlı şəkildə davam etdirilməsi;
  - 8. Yığımın yüksəldilməsi;
  - 9. İnvestisiyaların artırılması;
  - 10. Gəlir bölgüsünün yaxşılaşdırılması.
- Qeyd olunan hədəflər arasında maliyyə siyasəti vasitələri ilə təsir göstərilə biləcək olanları bunlardır: 1, 2, 4, 7, 8, 9 və 10.
- 3 və 6-cı hədəflər monetar siyasətə aiddir, 5-ci hədəf həm maliyyə, həm də monetar siyasətin birgə hədəfidir.
- 1, 3 və 8-ci hədəflər həm maliyyə, həm də monetar siyasət vasitələrindən birgə istifadəni tələb edir.

# MALİYYƏ SİYASƏTİNİN VASİTƏLƏRİ

- Vergilər
- Dövlət xərcləri
- Dovlət borclanması

# MALİYYƏ SİYASƏTİNİN ALT-SİYASƏTLƏRİ

- Xərc siyasəti
- Vergi siyasəti
- Borclanma siyasəti
- Yardım siyasəti
- Stimullaşdırma siyasəti
- Xarici ticarət siyasəti

# XƏRC SİYASƏTİ

- Dövlət xərclərinin miqdarını və ya istiqamətini dəyişdirmək yolu ilə iqtisadiyyata təsir göstərməyi nəzərdə tutan siyasətə ***xərc siyasəti*** deyilir.
- Fərz edək ki, hökumət xərclərini artırmaya və bu yolla devlyasiya təzyiqini aradan qaldırmağa çalışır.
- Bu halda Y = C + I + G + (X - M) bərabərliyində əvvəlcə G artacaq, sonra o xərci gəlir olaraq əldə edənlərin xərcləri – C və I artacaqdır.
- Təbii olaraq C-nin artması marjinal istehlak meylindən asılıdır. Yəni hər xərcləmənin gəlir olaraq əldə edilməsindən sonra mütlıq yenidən istehlak ediləcəyini gözləmək olmaz. Bəzən yığıma da çevrilə bilər.
- Əgər iqtisadiyyatda inflyasiya təzyiqi varsa o zaman qeyd olunanların əksini etmək və dövlət xərclərini azaltmaq lazımdır. Bu halda subyektlərin əllərinə keçəcək gəlir azalacağından C azalacaq və C-nin azalması I-ni də azaldacaqdır.

# VERGİ SİYASƏTİ

- Başda vergilər olmaqla dövlət gəlirlərinin miqyası, nisbəti və miqdarını dəyişdirmək məqsədilə iqtisadiyyata təsir göstərməyi nəzərdə tutan siyasətə ***vergi siyasəti*** deyilir.
- Məsələn, fərz edək ki, hökumət mənfəət vergisi dərəcəsini aşağı salaraq investisiyaları artırmağı nəzərdə tutur. Bu zaman $Y = C + I + G + (X - M)$ bərabərliyində I və G dəyişənləri bu dəyişikliyin təsirinə məruz qalacaqdır.
- Mənfəət vergisinin azaldılması şirkətlərin daha az vergi ödəməsi, investisiya xərclərinin azalması və əllərində qalan sərbəst fondları investisiyalara yönəltməsi ilə nəticələnəcəkdir. Bu halda da I artacaqdır.
- Mənfəət vergisinin azalması həmçinin dövlətin vergi gəlirlərinin, başqa sözlə xərclərinin (G) azalması deməkdir. Bu halda dövlət xərclərini azaltmaq istəmirsə, borclanmaya gedir.

# VERGİ SİYASƏTİ

- İnflyasiya ilə mübarizə üçün maliyyə siyasəti həyata keçirildiyini və istehlakı məhdudlaşdırmaq məqsədilə gəlir vergisi dərəcələrinin yüksəldildiyini fərz edək.
- Bu halda iki dəyişən bu dəyişikliyin təsirinə məruz qalacaqdır: C və G.
- İstehlak sərəncamda qalan gəlirin funksiyasıdır: C=f (Yd). Sərəncamda qalan gəlir (Yd) isə ümumi gəlirdən (Y) gəlir vergisi (Tg) çıxılmaqla tapılır: Yd = Y-Tg
- Bu halda Tg-nin artırılması Yd-nin azalması, yəni istehlakın azalması deməkdir.
- Bunun əvəzinə G artar, yəni dövlət daha çox gəlir toplayaraq daha çox xərcləmə imkanı əldə edər.

# BORCLANMA SİYASƏTİ

- Dövlət borclanmasını artırmaq və ya azaltmaq yolu ilə iqtisadiyyata təsir göstərməyi nəzərdə tutan siyasətə ***borclanma siyasəti*** deyilir.
- Xəzinənin daxili borclanması birbaşa qurumlara istiqamətlənə biləcəyi kimi bazara da yönələ bilər.
- Bu borclanma müəyyən fasilələrlə, dövlət sektorunun elan etdiyi şərtlər altında ola biləcəyi kimi davamlı tenderlər keçirmək yolu ilə də həyata keçirilə bilər.
- Xəzinə daxili borclanmasını tender keçirmədən birbaşa istiqraz satışı yolu ilə də həyata keçirə bilər. Buna tap metodu deyilir.

# BORCLANMA SİYASƏTİ

- Xəzinənin Mərkəzi Bankdan borclanmasına bəzi ölkələrdə icazə verildiyi halda, bəzi ölkələrdə monetar intizamı pozacağı arqumenti ilə icazə verilmir.
- Xəzinənin Mərkəzi Bankdan borclanması 2 formada olur:
  - ***Birbaşa borclanma***: Xəzinənin Mərkəzi Bankdan birbaşa nağd şəkildə birclanmasıdır. Buna monetar avans və ya Xəzinəyə avans adı verilir.
  - ***Dolayı borclanma***: Xəzinənin borclanma məqsədilə emissiya etdiyi qiymətli kağızların Mərkəzi Bank tərəfindən açıq bazar əməliyyatları yolu ilə satın alınmasıdır.
- Xəzinənin Mərkəzi Bankdan birbaşa borclanması və ya ***senyoraj haqqı***ndan istifadə etməsi artıq dünyada qəbul edilmir.

# BORCLANMA SİYASƏTİ

- Xəzinənin xarici borclanması mənbələri baxımından iki yerə ayrılır:
  - ***Xarici dövlətlərdən və ya beynəlxalq təşkilatlardan əldə edilən xarici borclar***: Əsasən imtiyazlı borclar adı verilən və daha uzun müddətli və daha aşağı faizli borclanmaya imkan verən borclanmadır.
  - ***Beynəlxalq pul və kapital bazarlarından və ya qısaca xarici bazarlardan təmin edilən xarici borclar***: Bazar şərtləri əsasında borclanma imkanıdır.
- Xəzinənin xarici borclanmasının əsasən iki məqsədi vardır:
  - ***Tədiyyə balansının maliyyələşdirilməsi***
  - ***Müəyyən layihələrin maliyyələşdirilməsi***
- Xarici borclanma ölkəyə xaricdən resurs daxil olmasını təmin etdiyi üçün iqtisadiyyatda dərhal müsbət effekt doğurur.
- Xarici borcun əsas hissənin və faizlərinin ölkədən çıxarılaraq ödənilməsi isə dərhal iqtisadiyyatda mənfi effekt doğurur.
- Buna görə də xarici borcların yüksək rentabelli layihələrə yönəldilməsi məqsədəuyğundur.

# BORCLANMA SİYASƏTİ

- Xəzinə beynəlxalq təşkilatlardan borclanmada 2 formada rol oynayır:
  - *Dövlətin adından beynəlxalq təşkilatdan birbaşa borclanır və bu borcdan özü istifadə edir və ya başqa bir dövlət qurumuna təqdim edərək onun istifadə edilməsini təmin edir*.
  - *Beynəlxalq qurumdan borclanacaq olan dövlət qurumuna təminat vermək yolu ilə o qurumun borclanmasına imkan yaradır*.

# BORCLANMA SİYASƏTİ

- Xəzinə beynəlxalq bazarlardan 2 formada borclanır:
  - ***Birbaşa banklardan kredit tələb edir***: Bu zaman kredit tələbini ya bir bank qarşılayır, ya da bir neçə bank və ya kredit təşkilatı bir yerdə qarşılayır. Birdən çox bank və kredit təşkilatının birlikdə müəyyən etdikləri şərtlərlə kredit verməsinə "sindiqat" və bu növ kreditlərə "sindiqat krediti" adı verilir.
  - ***Beynəlxalq kapital bazarlarına istiqraz ixrac etməklə borclanma***: Bu üsulda ölkənin kredit reytinqi, bazarın strukturu və şərtləri ilə yanaşı borclanmanın zamanı, miqdarı və xərcinə böyük təsir göstərir.

# BORCLANMA SİYASƏTİ

- Borclanma siyasəti də vergi və xərc siyasətinə oxşar təsirlər doğurur: müvəqqəti fond girişinə yol verdiyi üçün geri qaytarıldıqda ilk təsirinin əksi təsir doğurur.
- İqtisadiyyatda ortaya çıxan istehlak artımını borclanma siyasəti yolu ilə aradan qaldırmağa çalışıldığını fərz edək.
- Bu halda emissiya ediləcək istiqrazlarla bazar subyektlərinin əlindəki artıq likvid alınacaqdır.
- 3 aylıq istiqrazlar emissiya edərək bunun həyata keçirildiyini fərz edək.
- Əgər iqtisadiyyatdakı tələb artımı müvəqqəti bir meyldən ortaya çıxmış və o meyl 3 ay ərzində keçmişdirsə o zaman istiqraz geri alınıb subyektlərə pulları ödəndikdə heç bir problem olmayacaqdır.
- Əgər qeyd olunan meyl davamlı olarsa, o zaman istiqrazların alınıb pulların geri qaytarılması halında eyni meyl yenidən ortaya çıxacaq və üstəlik bu dəfə subyektlərin əlində 3 aylıq faiz qədər daha çox likvid olacaqdır.
- Borclanma siyasəti əsasən müvəqqəti problemləri həll etmək məqsədilə istifadə edilsə də nəticədə davamlı bir fəaliyyətə çevrilir və siyasət vasitəsi olmaqdan çıxaraq bir növ maliyyələşdirmə vasitəsinə çevrilərək başlanğıcdakı faydasını itirir.

# YARDIM SİYASƏTİ

- Yardım siyasəti xərc siyasətinin xüsusi bir formasıdır.
- Burada əsas olaraq bəzi məhsulların dəstəklənməsi üçün həyata keçirilən subvensiyalardan söhbət gedir.
- Bu siyasətlə dövlət gəlir bölgüsünə təsir göstərməyi və ya müəyyən məhsulların istehsalını artırmayı hədəfləyir.
- Fərz edək ki, hökumət buğda istehsalını dəstəkləmə qərarı almışdır və buğda istehsalçısına dünya qiymətlərindən yüksək qiymət verir.
- Bu halda dövlət xərcləri (G) artır, buna əlavə olaraq aqrar sektorda bu əlavə gəliri əldə edənlərin istehlak xərcləri (C) və investisiya xərcləri (I) də artır.
- Həmçinin bu qərar bir sonrakı il eyni qərarın davam edəcəyini fərz edən əkinçilərin yanaşması səbəbilə aqrar istehsalın da artmasına yol açacaqdır.
- Ancaq aqrar sektor böyük miqyasda iqlim şərtlərindən asılı olduğu üçün bu hər zaman istehsal artımı ilə nəticələnmir.

# STİMULLAŞDIRMA SİYASƏTİ

- Xərc siyasəti və ya vergi siyasətinin bir hissəsi kimi tətbiq edilən stimullaşdırma siyasətində məqsəd müəyyən məhsulların, müəyyən sektorların və ya mütərəqqi istehsal texnologiyalarının dəstəklənməsi yolu ilə istehsal keyfiyyətinin və ya rəqabət gücünün artırılmasını təmin etməkdir.
- Stimullaşdırmanın tətbiqi müxtəlif formalarda siyasətə çevrilə bilər. Bunlardan birincisi investisiya stimullaşdırmalarında və ya məşğulluq stimullaşdırmalarında olduğu kimi vergilərdə həyata keçirilən endirimlərdir.
- Məsələn, bəzi regionlara qoyulacaq investisiyalar üçün vergi endirimi təmin edilir. Fərz edək ki, regionlara qoyulan investisiyalar üçün mənfəət vergisinin müəyyən miqdar və ya nisbətdə endirilməsinə qərar verilmişdirsə, bu regional stimullaşdırmadır.
- Təyyarə motoru istehsal edəcək şirkətlərə mənfəət vergisi endirimi verilmişdirsə, bu da sektor stimullaşdırmasıdır.
- Stimullaşdırmalar son nəticədə investisiyalara (I) və daha az vergi alınmasına səbəb olduğu üçün də dövlət xərclərinə (G) təsir edir.
- Əgər ixracatla məşğul olan firmalar üçün bəzi stimullaşdırmalar həyata keçirilmişdirsə bu da ixracatı (X) artıracaq, dövlət xərclərini (G) isə azaldacaqdır.

# XARİCİ TİCARƏT SİYASƏTİ

- Maliyyə vasitələrinin bir hissəsindən və kurs siyasətindən istifadə etməklə əldə edilməsi hədəflənən xarici ticarət məqsədlərini reallaşdırmağa istiqamətlənmiş tədbirlərə ***xarici ticarət siyasəti*** adı verilir.
- Diqqət edilərsə burada da istifadə edilən vasitələr maliyyə vasitələridir. Yəni vergi və dövlət xərcləridir.
- Xüsusilə ixrac siyasəti dövlət xərcləri ilə, idxal siyasəti isə vergilərlə yaxından əlaqəlidir.
- Digər tərəfdən əgər dalğalı kurs metodundan başqa bir kurs metodu tətbiq edilirsə o zaman kurs metodu da xarici ticarət siyasətinin bir hissəsinə çevrilir.

# XARİCİ TİCARƏT SİYASƏTİ

- İxrac siyasəti
  - İxraca mükafat
  - İxracda vergi qaytarılması
  - Ucuz xammal dəstəyi
- İdxal siyasəti
  - Tariflər
  - Kvotalar
  - Anti-dempinq
  - Tarazlaşdırıcı vergi
  - Digər qeyri-tarif maneələri

# XARİCİ TİCARƏT SİYASƏTİ

- ***İxrac siyasəti*** əsasən ixrac edənlərə verilən stimullaşdırmalar formasında tətbiq edilir.
  - Məsələn, ixrac edənə ixracı əvəzində ölkəyə gətirdiyi hər 1 dollar üçün 1 sent ödəniş edilməsi.
  - Bəzi hallarda müəyyən məhsulların ixracı əvəzində və ya müəyyən ölkələrə istiqamətlənmiş ixraca xüsusi mükafat verilə bilər.
  - İxracda vergi qaytarılması da mükafat mexanizminin başqa bir növüdür. Bu zaman ixrac edənə ixrac etdiyi məhsulu istehsal edərkən və ya hazırlayarkən ödədiyi satış vergilərinin (məs. ƏDV) hamısı və ya müəyyən bir hissəsi qaytarılır. Nəticədə ixrac edənin vergi yükü yüngülləşdirilərək ixraca yönəlməsi stimullşdırılır.
  - Ucuz xammal dəstəyi bir sıra sahələrdə tətbiq edilir. Məsələn, ixrac edənin ixrac etdiyi məhsulun istehsalında istifadə etdiyi elektrik enerjisi ucuz tariflə verilə bilər və ya hər məşğul edilən işçi üçün gəlir vergisi endirimi edilə bilər.
- Ixrac siyasətinin əsas məqsədi ixrac edənin yükünü yüngülləşdirib istehsalçı və emalatçıları ixraca yönəltməkdir.

# XARİCİ TİCARƏT SİYASƏTİ

- ***İdxal siyasəti***ndə göstərilən tariflər əsllində idxal məhsullara tətbiq edilən gömrük vergiləridir.
- İdxal edilən məhsullara ən azından ölkə daxilində tətbiq edilən satış vergisi qədər vergi tətbiq edilməsi son dərəcədə təbiidir.
- Bu yerli və xarici fərqini ortadan qaldırmaq məqsədi daşıyır.
- Buna baxmayaraq əksər ölkələr idxal məhsullara qeyd olunandan daha yüksək tariflər tətbiq edir.
- Tariflərin tətbiqinin 4 əsas məqsədi vardır:
  – İstehlakı, başqa sözlə tələbi idarə etmək və bu yolla iqtisadiyyatı tarazlıqda tutma məqsədi daşıyan ***istehlak effekti***;
  – Ölkə daxilində oxşar istehsalla məşğul olanları və ya məşğul olmağı planlaşdıranları stimullaşdırmaq məqsədi daşıyan ***qoruma effekti***;
  – Dövlətin gəlirlərini artırmaq məqsədi daşıyan ***gəlir effekti***;
  – İstehlakçıdan alınan vergini cəmiyyətin ümumi istifadəsinə təqdim etmək məqsədi daşıyan ***bölgü effekti***.

# XARİCİ TİCARƏT SİYASƏTİ

- ***Kvotlar*** əslində qeyri-tarif maneələrinin ən tipik nümunəsidir.
- Əgər ölkənin idxal eələbi elastik deyildirsə, yəni tariflərlə qarşısını almaq mümkün deyildirsə, o zaman kvota tətbiq edilir.
- Kvota müəyyən bir məhsul üçün müəyyən miqdarda idxal edilməsinə icazə verilməsidir.
- Kvota xarici ticarət siyasətinin digər siyasətlərə oxşamayan bir tətəfini təmsil edir. Çünkü burada fiziki bir məhdudiyyətdən söhbət gedir. Bu baxımdan yanaşıldıqda kvota bir növ heterodoks maliyyə siyasətinə bənzəyir.
- ***Anti-dempinq*** ölkənin müəyyən bir bazarını ələ keçirmək üçün müxtəlif stimullaşdırma mexanizmləri ilə dəstəklənərək ucuz məhsul ixrac edən ölkələrə qarşı tətbiq edilən vergidir.
- ***Tarazlaşdırıcı vergi*** yenə də eyni formada bazarı ələ keçirmək üçün maya dəyərindən ucuz satılan məhsulların ölkəyə girişində tətbiq edilən əlavə vergilərdir.
- ***Digər qeyri-tarif maneələri*** isə idxalı çətinləşdirməyi hədəfləyən tədbirləri əhatə edir. Məs. Avtomobil idxalının yalnız bir gömrük qapısından idxal edilməsinə qərar verilməsi. Həmçinin idxal avtomobillərə yeni ekoloji standartların tətbiqi.

# XARİCİ TİCARƏT SİYASƏTİ

- İxraca mükafat, ucuz xammal dəstəyi, ixracda vergi qaytarılması kimi xarici ixrac siyasəti tədbirlərinin hamısı dövlət xərclərinin (G) artmasına səbəb olur.
- Bu baxımdan xərc siyasətinin spesifik bir istiqaməti kimi də qəbul edilir.
- İdxal siyasətində tətbiq edilən tədbirlərin də bir hissəsi vergi siyasətinin spesifik bir istiqaməti kimi çıxış edir.

# XARİCİ TİCARƏT SİYASƏTİ

- Müasir dövrdə xarici ticarət siyasətin alt-siyasətlərini tətbiq etmək o qədər də asan deyildir.
- Çünkü ***Dünya Ticarət Təşkilatı hüququ*** kimi sistemlər bunları yetərli qədər məhdudlaşdırır.
- *Praktikada daha çox anti-dempinq və tarazlaşdırıcı vergi mexanizmi*ndən istifadə edilir ki, bunlar da beynəlxalq müraciətlərin nəticələrinə bağlı qalmışdır.
- Artıq son 20 ildə xarici ticarət siyasətlərinin əvəzinə ***valyuta kursu siyasəti***ndən geniş istifadə edilir.
- İxracını artırmaq və idxalını məhdudlaşdırmaq istəyən ölkə milli pul vahidini ucuzlaşdırır.
- Ancaq son dövrlər kurs siyasətini də sərbəst həyata keçirmək çətinləşmiş və qlobal dünyada ölkələr istər-istəməz dalğalı kurs sisteminə keçməyə məcbur qalırlar.
- Hazırda kurs siyasətini ən yaxşı ***Çin*** tətbiq edir, ancaq ***ABŞ*** da buna görə Çinə ciddi təzyiqlər edir.

# SƏRT VƏ YUMUŞAQ MALİYYƏ SİYASƏTİ

- Maliyyə siyasəti, iqtisadiyyatın mövcud vəziyyətinə uyğun olaraq sərt və yumuşaq formada tətbiq edilir.
- ***Sərt maliyyə siyasəti***ndə xərclər limitə bağlanır, vergilər də yüksək dərəcələrlə alınır.
- Bu zaman büdcədə profsit əldə edilməsi hədəflənir.
- Əsasən iqtisadiyyatda inflyasiya meyllərinin yüksəldiyi, büdcə kəsrlərinin artmağa başladığı şəraitlərdə tətbiq edilir.
- ***Yumuşaq maliyyə siyasəti*** bu qeyd olunanların əksini nəzərdə tutur.
- Resesiya, depresiya, deflyasiya, staqflyasiya şəraitində tətbiq edilir.
- Dövlət xərcləri artırılır, vergi gəlirləri azaldılır, büdcə kəsiri ortaya çıxır.
- Bu yolla iqtisadiyyatda likvidlik yüksəldilir və tələb canlandırılır.

# KEYNESÇİ MALİYYƏ SİYASƏTİ

- Keynesin məşhur kitabı “***Pul, Məşğulluq və Faizin Ümumi Nəzəriyyəsi***” 1930-cu illərin Böyük Depresiyası zamanı nəşr edilmişdir.
- Keynes bu kitabda depresiyaya girmiş iqtisadiyyatlarda tələbi gücləndirməyi tövsiyə edir.
- Başqa sözlə Keynes depresiya mühitində yumuşaq maliyyə siyasəti həyata keçirməyi təklif edir.
- Keynesçi maliyyə siyasəti təxminən 1970-ci illərə qədər bütün Qərb ölkələrində tətbiq edilmişdir.
- Maliyyə siyasətindən istənilən nəticəni əldə etmək üçün vergilər üzərində daim dəyişiklik edə bilmə səlahiyyətinin gündəmə gəlməsinə səbəb olan ***incə tənzimləmə yanaşması*** da bu dövrdə iqtisadi ədəbiyyata daxil edilmişdir.
- 1970-ci illərdə ortaya çıxan ilk neft krizindən sonra ABŞ və Avropada inflyasiyanın yüksəlməsi Keynesçi maliyyə siyasətinin əvəzinə yavaş-yavaş monetar siyasət tədbirlərinin alınmasına yol açmışdır.

# YOXLAMA SUALLARI

1. Maliyyə siyasətinin məqsədi nədir?
2. Maliyyə siyasətinin məqsədlərinə çatmaq üçün istifadə etdiyi vasitələri sayın.
3. Xərc siyasəti hansı hallarda tətbiq edilir?
4. İnflyasiya şəraitində vergi siyasəti tətbiq edilirsə dolaylı vergilərə, yoxsa birbaşa vergilərə üstünlük verilməlidir? Səbəblərini izah edin.
5. Dövlət borclanması iqtisadi siyasət vasitəsi kimi istifadə edilə bilərmi? Vaxtı bitməmiş dövlət borclarınıqaytarmaq bəzi hallarda doğru bir yanaşma ola bilərmi?
6. Yardım siyasətinin əsaslarını izah edin. Bu büdcə üzərində necə təsir göstərir?
7. Stimullaşdırma siyasətinin dövlət maliyyəsinə yükü nədir? Müzakirə edin.
8. Xarici ticarət siyasətinin əsas cəhətlərini izah edin. Bu siyasətin istifadə edəcəyi vasitələr arasında kurs siyasəti də ola bilərmi? Müzakirə edin.
9. Sərt maliyyə siyasətinin hədəfi nədir?
10. Əgər iqtisadiyyatda daralma varsa, hökumətə necə bir maliyyə siyasəti tətbiq etməsini tövsiyə edərdiniz?Səbəblərini göstərərək izah edin.

# TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR


- Mahfi Eğilmez, Ercan Kumcu, (2014). “Ekonomi Politikası: Teori ve Türkiye Uygulaması”, İstanbul: Remzi Kitabevi, 19. Basım.
- Agnes Benassy-Quere və.b., (2010). “Economic Policy: Theory and Policy”. Oxford University Press.
- Qreqori Mənkyu (2007), “Ekonomiksin əsasları”, Bakı: CBS Polygraphic Production.
- Rasim Həsənov (2009), “İqtisadi siyasət: metodologiya və praktika”, Bakı: “İqtisad Universiteti” nəşriyyatı.